İPƏK YOLU, No.2, 2024, səh.5-12
https://doi.org/10.30546/1810-911X.2024.2.01

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ - 140

## M.Ə. RƏSULZADƏNİN İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ FƏALİYYƏTİ HAQQINDA

**Qabil Əliyev**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: qabilalioglu1956@gmail.com

**Xülasə.** İkinci dünya müharibəsi dövründə Azərbaycan mühacirlərinin lideri M.Ə. Rəsulzadə Almaniya ilə antikommunist mövqedə işbirliyinə nail olmaq, Azərbaycanın müstəqilliyini bərpa etmək, xüsusən də çox ağır şəraitdə əsir düşərgələrində saxlanılan azərbaycanlı və digər türk əsirləri xilas etmək üçün fəal mübarizəyə başladı. Azərbaycanlı hərbi əsirləri milli legionlara cəlb etməklə onları labüd ölümdən xilas etdi. Müharibənin sonunda isə azərbaycanlı əsirlərin Sovet İttifaqına təhvil verilməsinə qarşı çıxdı.

**Açar sözlər:** Müharibə, faşizm, azərbaycanlı əsirlər, milli legion.

---

**ABOUT THE ACTIVITIES OF M.A. RASULZADE DURING THE SECOND WORLD WAR**

**Gabil Aliyev**
*Baku State University, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** During the Second World War, the leader of Azerbaijani emigrants M.A. Rasulzade launched an active struggle to achieve cooperation with Germany on an anti-communist position, to restore the independence of Azerbaijan and especially to save Azerbaijani and other Turkish prisoners who were kept in camps in very difficult conditions. By recruiting Azerbaijani prisoners of war into the national legions, he saved them from inevitable death. At the end of the war he opposed the transfer of Azerbaijani prisoners to the Soviet Union.
**Keyword:** War, fascism, Azerbaijani prisoners, national legion.

**О ДЕЯТЕЛЬНОСТИ М.А. РАСУЛЗАДЕ В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ**

**Габиль Алиев**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме:** В годы Второй мировой войны лидер азербайджанских эмигрантов М.А. Расулзаде развернул активную борьбу за достижение сотрудничества с Германией на антикоммунистической позиции, за восстановление независимости Азербайджана и особенно за спасение азербайджанских и других туркских заключенных, которые содержались в лагерях в очень тяжелых условиях. Привлекая в национальные легионы азербайджанских военнопленных, он спас их от неминуемой гибели. В конце войны выступал против передачи азербайджанских пленных Советскому Союзу.
**Ключевые слова:** Война, фашизм, азербайджанские пленные, национальный легион.

---

İkinci dünya müharibəsi başlayanda Azərbaycan xalqının görkəmli ictimai-siyasi xadimi Məhəmməd Əmin Rəsulzadə Qafqazdan olan bir çox siyasi mühacirlə birlikdə Polşada yaşayırdı. Müharibə ərəfəsində Polşada cəmləşmiş Prometey hərəkatı iştirakçıları Almaniyada 1937-ci ildən sonra güclənən antikommunist xəttindən yararlanmaq, Qafqaz mühacir təşkilatlarının fəaliyyətini canlandırmaq, Almaniyanın yardımı ilə Qafqaz xalqlarının Sovet

Rusiyasının əsarətindən qurtulmasına nail olmaq istiqamətində səylərini artırdılar. Həmin il M.Ə. Rəsulzadənin Berlinə səfəri, alman hakimiyyət nümayəndələri ilə görüşləri Berlində Azərbaycan Milli Mərkəzinin fəaliyyətinin genişlənməsinə, 1939-cu ilin əvvəlində burada "Qurtuluş" jurnalının almanca əlavəsinin nəşrə başlanmasına gətirib çıxardı.

Jurnalın birinci sayında M.Ə. Rəsulzadənin Varşavada 1938-ci il aprelin 7-də Prometeyçilərin diskussiyasında çıxışı dərc edilmişdi. Bu çıxış aydın şəkildə göstərirdi ki, Rəsulzadə və məsləkdaşları antisovetizm və antiRusiya mövqeyində olan bütün qüvvələrlə birlikdə çıxış etməyə hazırdır: "Lakin bu qüvvələrin tərkibi və məqsədləri müxtəlif olduğu üçün, bu cəhət nəzərdə saxlanmalıdır. Antikommunist mövqeyində olanlarla, müəyyən tarixi mərhələyə qədər birlikdə addımlaya bilərik. Təkcə antikommunist mövqedə qalmayıb, həm rus imperializminə qarşı çıxış edənlərlə bizim ittifaqımız daha uzunömürlü olacaqdır" [11, s.430].

Lakin Almaniyanın Polşaya təcavüzü vəziyyəti əsaslı şəkildə dəyişdi. Gürcüstan mühacirlərinin lideri Noy Jordaniya dərhal bu hücumu xüsusi bəyanatla pislədi: "Millətlərin həyatını böyük rahatlıqla yox edən Almaniya dövləti Gürcüstanın azadlığını bərpa etməsinə kömək göstərməz. Taleyimiz ... başqalarının azadlığına hörmət etməyə hazır olan demokratik güclərlə bağlıdır". M.Ə. Rəsulzadə də faşizm təcavüzünə münasibətdə N. Jordaniya ilə tam həmrəy olduğunu bəyan edərək Polşanı tərk etdi.

İkinci dünya müharibəsi başlandıqdan sonra Hitler Almaniyası Sovet rejiminə qarşı mübarizə aparan mühacirət liderlərini, o cümlədən M.Ə. Rəsulzadəni Berlinə dəvət etdi. M.Ə. Rəsulzadə həm Azərbaycanın müstəqilliyinin bərpası üçün Almaniyanın yaradacağı imkanları dəyərləndirmək, həm də azərbaycanlı hərbi əsirlərin xilas edilməsi yollarını aramaq üçün bu dəvəti qəbul etdi. Qeyd etmək lazımdır ki, M.Ə. Rəsulzadə hələ 1930-cu illərdə – Hitler Almaniyada hakimiyyətə gəldiyi zaman faşizm və nasizm ideologiyalarını dərindən araşdırmış, belə qənaətə gəlmişdi ki, nasizm ilk növbədə kommunist diktaturasına qarşı mübarizə aparmaq üçün yaradılmış ideologiyadır, faşizm kimi o da kommunistlərdən diktatorluq fikrini əsas götürmüş, lakin kommunistlərin proletar beynəlmiləlçiliyi ideyasını qatı millətçi – şovinist baxışlarla əvəz etmişdir [5, s.67]. M.Ə. Rəsulzadə yazırdı: "Hitlerizm demokrasi rejiminin müxalifi olaraq iş başına gəlmiş, təsisinə başladığı idarə İtaliyada olduğu kimi, faşist diktatorluğu imiş. Təhlükə sadəcə hürriyyət və demokrasi prinsiplərinə deyil, eyni zamanda beynəlmiləl sülh dəxi qorxu altındadır" [6; 1, s.171].

M.Ə. Rəsulzadənin Hitler Almaniyası rəsmiləri ilə danışıqlar aparmasına görə ittiham edilməsinin heç bir əsası yoxdur. Çünki "Münhen sövdələşməsi"ndə İngiltərə və Fransa, "Molotov-Ribbentrop paktı" imzalanması zamanı Sovet İttifaqı rəhbərliyi Hitler və komandası ilə nəinki danışıqlar aparmış, hətta Avropanın, dünyanın taleyinə əsaslı təsir edən sövdələşmələrə getmişdilər. M.Ə. Rəsulzadə isə Berlində alman hakimiyyəti təmsilçiləri ilə aylarla davam edən danışıqlar zamanı Azərbaycanın müstəqilliyi xaricində heç bir anlaşmaya razılıq verməmişdi. M.Ə. Rəsulzadə üçün önəmli olan azərbaycanlılardan ibarət hərbi hissələrin alman qoşunları ilə birlikdə bolşeviklərə qarşı döyüşməsi, Azərbaycan müstəqilliyinin

bərpasından sonra Almaniya ilə bərabərhüquqlu siyasi-iqtisadi əməkdaşlığın bərqərar olması idi. O, Sovet işğalının Almaniya işğalı ilə əvəzlənməsinə qarşı qəti şəkildə çıxış edirdi [1, s.172].

1942-ci ildə aprel-may aylarında Almaniya Xarici İşlər Nazirliyinin Şərq məsələləri üzrə müvəkkili Fon Şulenberqin dəvəti ilə Berlinə gedən M.Ə. Rəsulzadə burada Almaniyanın səlahiyyətli dövlət adamları ilə Azərbaycan Cümhuriyyətinin müqəddəratı ilə bağlı danışıqlar aparmışdı [7, s.83]. Berlinin «Adlon» otelində keçirildiyi üçün siyasi ədəbiyyata bu danışıqlar «Adloniada» kimi daxil olmuşdur.

M.Ə. Rəsulzadə nasist Almaniyası ilə apardığı danışıqlarda Azərbaycan tərəfinin mövqeyni 12 maddəlik memorandumda ifadə etmişdi. Memorandumun əsas şərtləri bunlar idi: azərbaycanlıların alman əsir düşərgələrindən çıxarılması; onların yalnız mülki işlərdə işlədilməsi; milli Azərbaycan ordusunun yaradılması; ordu başçısının azərbaycanlılar içərisindən seçilməsi; azərbaycanlıların sovet imperiyasında yaşayan digər xalqlara qarşı deyil, yalnız ruslara qarşı vuruşması; qoşunlar Azərbaycana girən zaman milli ordunun ilk daxil olmasının təmin edilməsi və s. Almaniya tərəfi bu şərtləri qəbul etmədiyi üçün M.Ə. Rəsulzadə Hitler Almaniyasının əsl məqsədini anladı və Berlini tərk etmək qərarına gəldi. Lakin Almaniya hökumət dairələri Xarici İşlər Nazirliyinin şöbə müdiri, şərqşünas-alim, professor Hervard Fon Mendenin israrı ilə Qafqaz və bütün türk-müsəlman xalqları arasında böyük nüfuza malik olan M.Ə. Rəsulzadəni əldən buraxmamaq üçün onu müxtəlif vədlərlə həmin ilin avqustuna qədər Berlində saxlaya bildilər [7, s.83].

M.Ə. Rəsulzadə «Adloniada» danışıqlarının faydasızlığına bir daha əmin olduqdan sonra 1942-ci ilin payızında Almaniyanı tərk etdi. Lakin hadisələrin sonrakı gedişi Almaniya hökumətini iki il sonra – 1944-cü ilin payızında M.Ə. Rəsulzadəni yenidən xatırlamağa məcbur etdi və belə bir vacib və nüfuzlu şəxsin ölkəni tərk etməsinə imkan verənləri sərt şəkildə cəzalandırdı. Ardınca da M.Ə. Rəsulzadənin azərbaycanlı mühacirlər və hərbi əsirlər arasında böyük nüfuzundan yararlanmaq məqsədilə onu 1944-cü ilin noyabrında Drezdendə yenicə təşkil edilmiş müsəlman ruhanilər hazırlayan məktəbə dosent kimi mühazirə oxumağa dəvət etdilər. Lakin M.Ə. Rəsulzadə Almaniya ilə əməkdaşlığın faydalı olacağına ümidini kəsdiyi üçün, bu təklifi rədd etdi.

Polşanın almanlar tərəfindən istila edilməsindən sonra Fransaya, ardınca İngiltərəyə köçən M.Ə. Rəsulzadə sonda Rumıniyaya sığındı, burada ədəbi və ictimai-siyasi fəaliyyətini davam etdirdi. Türkiyənin Rumıniyadakı səfiri Həmdullah Sübhi Tanrıövər onun Buxarestdə fəaliyyəti üçün şərait yaratdı. Səfirliyin qonaq evində yerləşdirdi, xərclərini qarşılamaq üçün Türkiyə hökuməti müvafiq vəsait ayırdı. M.Ə. Rəsulzadə 1951-ci ildə Ankarada çap olunmuş «Azərbaycan şairi Nizami» monoqrafiyasının mühüm bir hissəsini burada yazdı.

Almaniyanın 1941-ci il iyunun 22-də SSRİ-yə qəfil hücumundan sonrakı ilk aylarda Sovet ordusunun sürətlə geri çəkilməsi prosesində 3 milyondan çox əsgər və zabit əsir düşdü. Onlardan 150 minə qədəri azərbaycanlı hərbçi [12, s.35] idi. Əsirlər çox ağır şəraitdə saxlanılır və xəstəliklərdən, soyuqdan, qida çatışmazlığından kütləvi məhv olurdular.

İkinci dünya müharibəsinin ilk dövründə, xüsusən 1941-ci ildə Sovet qoşunlarının sürətlə geri çəkilməsi zamanı əsir düşən sovet əsgərlərindən alman komandanlığı Sovet ordusuna qarşı döyüşmək üçün "Şərq legionları" adlı hərbi hissələr təşkilinə başladı. Sovet ordusunun əsir düşmüş hərbçilərinin bir hissəsinin almanlarla əməkdaşlığa razılıq verməsinin başlıca səbəbi əsir düşərgələrində qeyri-insani şəraitin hökm sürməsi, aclıqdan və xəstəlikdən kütləvi ölüm halları idi. Onlar sağ qalmağın yeganə yolunu almanlara qulluq etməkdə görürdülər. Əsirlərin bir qrupu isə, alman təbliğatının təsiri ilə Azərbaycan, Ermənistan və Gürcüstanın 1920-1921-ci illərdə itirilmiş müstəqilliyini bərpa etmək üçün, həmçinin Sovet rejimindən, kütləvi repressiyalardan narazı qaldıqları üçün könüllü surətdə alman komandanlığı ilə əməkdaşlığa başlamışdılar [2, s.123-124].

Qafqazdan olan sovet hərbi əsirlərini alman ordusu tərkibində vuruşmağa təşviq etmək məqsədi ilə Polşada və Ukraynada xüsusi məntəqələr yaradıldı. Polşada Rembertovoda fəaliyyət göstərən Şərq legionları komandanlığı Ştabı qafqazlı əsirlərə sürətli təlim keçməyə başladı. 1942-ci ilin yazında Polşadan Şərq cəbhəsinə (Sovet-alman cəbhəsinə – Q.Ə.) 6 gürcü, 6 erməni, 3 Şimali Qafqaz, 2 Azərbaycan taburu yola salındı. Hər taburda 800 - 1000 qafqazlı hərbçi və bundan əlavə 60 alman hərbçi komanda heyəti var idi [14, s.138; 2, s.123-124; 4, s.160-161]. Ümumilikdə isə, 1943-cü ilin oktyabr ayına kimi Polşada Şərq legionları komandanlığı tərəfindən 9 erməni, 8 gürcü, 8 azərbaycanlı, 7 Şimali Qafqazın müsəlman əhalisindən ibarət tabur təşkil edilmişdi [14, s.140].

Qafqazlı hərbi əsirlərdən milli legionlar təşkil edilməsi üçün Ukraynanın Poltava vilayətində də xüsusi məntəqələr yaradılmışdı. Mirqorodda legionların ümumi ştabı və tərcüməçi kursları yerləşirdi. Gürcü legionu – Qadyaçda (komandiri – mayor Enqxolm), erməni legionu – Loxovitsdə (komandiri podpolkovnik Ristov) yaradılırdı. Şimali Qafqazlılardan ibarət legion – Mirqorodda (komandiri – kapitan Olbix), Azərbaycan legionu Prilukada (komandir – mayor Xofer) təlim keçirdi. 1943-cü ilin may ayına kimi Ukraynada 6 gürcü, 4 erməni, 6 azərbaycanlı, 2 Şimali Qafqazlı müsəlman əsirlərdən ibarət tabur təşkil edilib cəbhəyə göndərilmişdi [14, s.142].

1943-cü il sentyabrın 29-da A. Hitlerin əmri ilə Şərq könüllü birlikləri Qərbi Avropaya köçürüldü. Alman qoşunlarının Qafqazdan və Cənubi Rusiyadan çəkilməsi ilə əlaqədar alman komandanlığı bu biliklərdən "Qərb" orduları qrupunda istifadə etməyi məqsədəuyğun saydı. 1944-cü ilin may-iyun aylarında Fransa, Belçika və Niderlandda 6 gürcü, 5 erməni, 1 azərbaycanlı, 2 Şimali Qafqazlı legionerlərdən ibarət tabur xidmət edirdi [14, s.205].

1941-ci ilin avqust ayında Berlində Şərq nazirliyi nəzdində hərbi əsirlərlə iş üzrə komissiyalar yaradıldı. Bu komissiyalar sovet hərbi əsirlərini milli əlamətə görə ayırıb qeydə almalı idilər. Komissiyaların işinə Qafqazdan olan mühacirət nümayəndələri, daha əvvəl "Prometey" hərəkatında fəal iştirak edənlər cəlb edildilər. Həmin dövrdə M.Ə. Rəsulzadə də bu məqsədlə Berlinə səfər etdi [11, s.494].

Məhz bu komissiyaların fəaliyyəti nəticəsində alman komandanlığının diqqəti hərbi əsirlərin dözülməz şəraitinə cəlb edildi və on minlərlə insan 1941-ci ilin sərt qışında labüd ölümdən qurtuldu. 1941-ci ilin sentyabr ayında Şərq (sovet-alman) cəbhəsinin cənub məntəqələrində olan Türkiyə hərbi nümayəndə heyəti alman komandanlığına müsəlman, xüsusən də azərbaycanlı hərbi əsirlərə sərt münasibətdən çəkinmələrini tövsiyyə etdi. Almaniyaya səfər edən türk generalları Ali Fuat Erden və Hüseyn Hüsni Emir Erkilet Şərq cəbhəsində vəziyyətlə və müsəlman türk əsirlərin saxlandıqları əsir düşərgələrindəki şəraitlə tanış olduqdan sonra Hitlerə müraciət etdilər ki, türk əsirlərdən könüllü dəstələr təşkil etsinlər. Kütləvi aclığın tüğyan etdiyi və soyuq qış şərtlərinə uyğunlaşdırılmamış əsir düşərgələrindəki insanları labüd ölümdən yalnız “könüllü” dəstələrə yazmaqla xilas etmək mümkün idi [3, s.285].

Almaniyada olan Azərbaycan mühacirlərinin lideri M.Ə. Rəsulzadə və silahdaşlarının, eləcə də Türkiyə hərbi nümayəndə heyətinin bu fəaliyyəti nəticəsində alman SD birlikləri 1941-ci il sentyabrın 12-dən etibarən müsəlman əsirlərə, o cümlədən azərbaycanlı əsirlərə qarşı münasibət nisbətən yumşaldı [3, s.290; 8, s.89].

Müharibə illərində 40 minə qədər azərbaycanlı milli legionda xidmət etmişdi. İlk legion 1942-ci ildə Polşada təşkil edilmişdi və komanda heyətinin 25 faizi alman zabitlərindən ibarət idi [12, s.35]. Hitler Almaniyası tərəfindən müharibədə iştirak edən azərbaycanlı və Qafqazın digər müsəlman xalqların: dağıstanlı, çeçen və inquş legionerlərin ümumi sayı 40 minə qədər idi. Ona görə də onların qatıldığı hərbi birlik ilk vaxtlar “Qafqaz-müsəlman legionu”adlanırdı. Bu legiona Sovet ordusunun keçmiş mayoru Əbdürrəhman Fətəlibəyli-Düdənginski başçılıq edirdi. Legionun formalaşdırılmasında Hitler Almaniyasının yardımı ilə Azərbaycanın müstəqillik qazanacağını düşünən AXC-nin mühacir xadimləri iştirak etmişdilər. 1942-ci il avqustun 2-də bu legionda xidmət edən dağıstanlıları və Qafqazın digər müsəlman xalqlarından olan hərbçiləri ayırıb “Şimali Qafqaz legionu” yaratdılar. O zamandan da azərbaycanlılardan ibarət olan “Azərbaycan legionu” formalaşdırıldı [14, s.135].

O. Romanko adlı tədqiqatçıya görə, İkinci dünya müharibəsi dövründə Almaniya tərəfində hərbi xidmət edən azərbaycanlıların ümumi sayı 25-35 min nəfərə qədər idi. Onlar 15 piyada taburunda, 314-cü piyada alayında, 1 xüsusi təyinatlı birliyə daxil olan “Dağlı” taburunda, 21 tikinti və təsərrüfat rotasında xidmət etmişdilər [14, s.231].

Sergey Drobyazko adlı müəllif 1941-1945-ci illərdə alman ordusunda 40 min azərbaycanlı, 30 min Şimali Qafqazlı, 25 min gürcü, 20 min ermənin xidmət etdiyini qeyd etmişdir [10, s.4].

Azərbaycanlı müəllif N. Yaqublu hərbi legionlarda 36,5 minə qədər azərbaycanlının xidmət etdiyini irəli sürmüşdür [9, s.49]. İkinci dünya müharibəsi və bütövlükdə Sovet dövrü haqqında fundamental tədqiqatlar müəllifi Cəmil Həsənli isə Azərbaycan legionunun rəhbəri İsmayıl Əkbərin 1944-cü il oktyabrın 1-nə aid məruzəsinə əsaslanaraq fərqli rəqəmlər qeyd etmişdir. C. Həsənli əsərində İkinci dünya müharibəsi dövründə alman ordusu tərəfindən döyüşən azərbaycanlı legionerlərin sayının 37913 nəfər, o cümlədən 10975 nəfərin 11 hərbi-

piyada taburunda, 927 nəfərin dağ-atıcı taburunda, 1824 nəfərin 353-cü alman diviziyası tərkibində, 2990-nəfərin 162-ci Türk diviziyası tərkibində, 3968 nəfərin legioner taburları yanında arxa piyada taburlarında, 4800 nəfərin fəhlə taburlarında, 2851 nəfərin Osttürk SS birliyində, 1090 nəfərin Qafqaz SS birliyi tərkibində xidmət etdiyini bildirmişdir [3, s.297]. Bununla bərabər, digər alman hərbi hissələrində də azərbaycanlı zabitlər xidmət edirdilər ki, onlarla birlikdə ümumi say 38598 nəfərə çatmışdı. Onların da 169 nəfəri polkovnik və 3721 nəfəri kiçik zabit idi [3, s.297]. C. Həsənli həmçinin 1944-cü ilin sonunda 11 min azərbaycanlının hələ də əsir düşərgəsində saxlandığını, 275 nəfərin də "etibarsız könüllü" kimi yenidən əsir düşərgələrinə qaytarıldığını qeyd etmişdir [3, s.297]. Bizim fikrimizcə, C. Həsənlinin əsərində legionerlərin komandiri İsmayıl Əkbərə istinadla verilən bu faktlar daha doğrudur.

1945-ci ilin fevralında Almaniya tərəfində hərbi xidmət edən sovet vətəndaşlarının ümumi sayı 665-675 min nəfərə çatmışdı [14, s.17]. İlk vaxtlar onlardan cəbhəarxası işlərdə: sürücü, mehtər, arabaçı, mətbəx xidmətçisi, qara fəhlə kimi, döyüş bölgələrində isə sursat daşıyan, rabitəçi və minatəmizləyən kimi istifadə edilirdi.

Legionlarda xidmət edənlərin əksər hissəsi əsir düşərgələrində aclıqdan və qəddar rəftardan qurtulmaq üçün bu addımı atmışdılar. Onların bir hissəsi də nifrət etdikləri sovet totalitar rejiminə, kütləvi repressiyalara qarşı şüurlu şəkildə mübarizə aparırdılar.

Azərbaycan legionu döyüşçülərinin böyük bir hissəsi fürsət düşən kimi hərbi hissəni tərk edib antifaşist təşkilatlarına, partizan dəstələrinə qoşulurdu. Məsələn, 804-cü Azərbaycan taburu 1943-cü ilin avqustunda Qafqazdan Krıma köçürüləndən sonra gizli təşkilat yaradaraq yerli partizan dəstəsi ilə əlaqəyə girdi ki, legionerlərin partizanlara qoşulmasını təşkil etsin. Lakin 1943-cü ilin oktyabrın 8-də xəyanət nəticəsində gizli təşkilatın fəaliyyəti alman komandanlığına bəlli oldu. 8 nəfər güllələndi, tabur tərksilah edildi, legionerlər yenidən əsir düşərgəsinə qaytarıldı. Yalnız 60 nəfər qaçıb partizanlara qoşuldu və Krımın tam azad edilməsinə qədər mübarizə apardı [14, s.214]. Azərbaycan legionunun bölmələri İtaliya və Fransada yerləşdirildikdən sonra legionerlərin xeyli hissəsi partizan dəstələrinə, bəzi legionerlər də Fransa Müqavimət hərəkatına qoşuldular.

1943-cü ilin avqustun 5-də yenidən Buxarestə dönən M.Ə. Rəsulzadə daha bir il burada Türkiyə səfirliyinin qonaq evində yaşamını davam etdirdi. 1944-cü ilin yayında sovet qoşunlarının Ruminiyaya daxil olması ilə əlaqədar olaraq Buxarest şəhərini tərk etdi. Yaxın dostu, Türkiyənin Rumıniyadakı səfiri Həmdulla Sübhi Tanrıövər Ankaraya döndü. M.Ə. Rəsulzadə isə öncə İsveçrəyə keçmək üçün viza almağa təşəbbüs göstərdi, lakin bu cəhd uğursuz olduğu üçün Vyanaya getdi. Daha sonra isə Almaniyanın Frayburq şəhərinə köçdü. Bir müddət sonra şəhərə hava hücumları ilə bağlı ölkənin mərkəz hissəsinə çəkildi, 1945-ci il aprelin 24-də isə Almaniyanın Amerika işğal bölgəsinə keçdi.

M.Ə. Rəsulzadə yenidən Almaniyada olduğu müddət ərzində azərbaycanlı əsirlər ilə, legionerlərlə sıx əlaqə saxlamış, tez-tez onların yaşadıqları düşərgələrə baş çəkmişdi. O, mayor

Əbdürrəhman Fətalibəyli-Düdənginski (1908-1954) ilə birlikdə Azərbaycan legionunun üzvlərinin Sovet İttifaqına verilməsinə qarşı fəal mübarizə aparmışdı. Çünki, 1945-ci ildə müharibə başa çatdıqdan sonra SSRİ-yə qayıdan bütün hərbi əsirlər könüllü və ya ağır yaralanma nəticəsində təslim olub-olmamasından asılı olmayaraq "xalq düşməni", "Vətən xaini" kimi damğalanır, ölümə və ya uzun müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilirdilər. Ümumilikdə, 1945-ci ilin mayında Almaniyanın təslim olması zamanı əsir götürülmüş 28 minə yaxın azərbaycanlı könüllü Qərb müttəfiqlərinin əlində idi, onların əksəriyyəti Sovet İttifaqına təhvil verildi. Yalnız 800 azərbaycanlı legioner Avropa ölkələrində qala bildi, daha sonra Fransa, İsveçrə, Almaniya, Misir, Türkiyə, İtaliya, ABŞ və digər ölkələrdə yerləşdi. M.Ə. Rəsulzadə müharibədən sonra azərbaycanlı əsirlərin Türkiyədə yaşamalarını təmin etmək üçün birbaşa Türkiyənin prezidenti İsmət İnönü ilə danışıqlar aparmış və çətinliklə də olsa, əsirlərin bir qisminin Türkiyəyə sığınmalarını təmin etmişdi [7, s.84].

M.Ə. Rəsulzadə İkinci dünya müharibəsindən sonra Münhendə Qafqazın mühacir nümayəndələrinin toplantısında xüsusi vurğulamışdı ki, Qafqaz birliyi və həmrəyliyi ideyası Qafqazın dörd respublikası nümayəndələrinin İkinci dünya müharibəsi dövründə birgə çıxışlarında öz əksini tapmış [13, s.41], müstəqillik ideallarından heç zaman geri çəkilməmişlər.

Müharibənin son dövrünü Avropanın müxtəlif ölkələrində keçirməyə məcbur olan M.Ə. Rəsulzadə 1947-ci ilin sentyabrında Türkiyəyə dönməyə icazə aldı və ömrünün sonuna kimi Ankarada yaşadı. O, 1949-cu ildə Ankarada Azərbaycan Kültür Dərnəyini təşkil etdi, 1952-ci ildən isə «Azərbaycan» dərgisini çıxarmağa başladı. Bu fəaliyyəti dövründə də Azərbaycanın istiqlal savaşı üçün böyük mücadilə verdi.

## Ədəbiyyat


1. Ələkbərov F.Q. (2007), Məhəmməd Əmin Rəsulzadənin Dünyagörüşü. Bakı, Elm nəşriyyatı, 270.
2. Əliyev Q.Ə. (2020), Qafqaz respublikalarının İkinci dünya müharibəsində iştirakı. İpək Yolu, No.4, 120-126.
3. Həsənli C.P. (2015), İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945). Bakı, Yazıçı, 540. https://au.edu.az/upload-files/menu/ipekyolu/2020_04/16EliyevQ.pdf
4. Movsisyan A. (2017), Ermeni tarihi. Yerevan, Yerevan Devlet Üniversitesi Yayınları, 120.
5. Resulzade M.E. (1978), Milli Tesanüd. Ankara: Kardeş Matbaası, 143.
6. Resulzade M.E. (1993), Demokasi ve sovetler. İstiklal Gazetesi, Berlin.
7. Sultanlı V. (2014), İstiqlal Sevgisi. Bakı, Elm və təhsil, 252.
8. Yaqublu N.Q. (2002), Azərbaycan Legionerləri. Bakı, BDU nəşriyyatı, 307.
9. Yaqublu N.Q. (2008), Əbdürrəhman Fətalibəyli-Düdənginski. Bakı, Adiloğlu, 262.
10. Дробязко С.И. (1999), Восточные легионы и казачьи части в верьахте. Москва, АСТ, 46.

11. Мамулиа Г., Абуталыбов Р. (2014), Страна огней. В борьбе за свободы и независимость. Политическая история азербайджанской эмиграции. 1920-1945 гг. Баку, CBS, 584.
12. Нифталиев И. (2013), Некоторые особенности места и роли Азербайджана в истории II мировой войны (современная азербайджанская историография). Bakı: Elm, 32-38.
13. Расулзаде М.Э. (2011), Основные линии Кавказской политики (Доклад, сделенный на Кавказской Конференции в Мюнхене). Azərbaycanın mühacirət irsi. Bakı, Elm və təhsil, 232s.
14. Романько О.В. (2004), Мусульманские легионы во Второй мировой войне, Москва, ООО Изд-во АСТ, 312.